# Ölkəmiz Frankfurt Kitab Yarmarkasında təmsil olunub

Almaniya Federativ Respublikasının Frankfurt şəhərində (Frankfurt am Main) 16-20 oktyabr tarixlərində keçirilən 76-cı Frankfurt Kitab Yarmarkasında (Frankfurter Buchmesse 2024) Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ölkəmiz də xüsusi stendlə təmsil olunub.




Dünyanın ən böyük kitab nümayişi meydanı sayılan və Azərbaycanın da ənənəvi olaraq iştirak etdiyi Frankfurt yarmarkası bu il “Oxu. Düşün. Əlaqələndir” devizi ilə keçirilib. Sərgiyə 95 ölkədən 4 minə yaxın nəşriyyat və aidiyyəti qurumlar qatılıb. Fəxri qonaq ölkə İtaliya olub.

Mədəniyyət nazirinin müavini Səadət Yusifovanın rəhbərliyi ilə Azərbaycanın yazar və naşirlərdən ibarət nümayəndə heyəti sərgidə iştirak edib.

Milli stenddə 125 adda 230 nüsxə kitab ziyarətçilərə təqdim olunub. Stenddə “Xalq Bank”ın “Xalq əmanəti” layihəsi üzrə işıq üzü görən kitablar, “TEAS Press”, “Hədəf Nəşrləri”, “Qədim Qala” və digər nəşriyyatların çap məhsulları yer alıb.

Kitab işi sahəsində çalışan minlərlə mütəxəssisin görüş yeri olan Frankfurt sərgisi yeni əlaqələrin qurulması və təcrübə mübadiləsi üçün də mühüm platformadır.

Azərbaycan nümayəndə heyəti bir sıra işgüzar görüşlər keçirib.

Roma Milli Mərkəzi Kitabxanasının direktoru Stefano Campagnolo ilə görüşdə o, 2023-cü ilin sentyabrında Bakıda Azərbaycan Milli Kitabxanasının 100 illiyinə həsr olunmuş tədbirdə iştirakını məmnunluqla yada salıb. İki ölkənin kitabxanaları arasında əməkdaşlığın dərinləşdirilməsi, kitab mübadiləsi və birgə layihələrin həyata keçirilməsi barədə söhbət aparılıb.

Yarmarkanın açılış günü Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələri, İstanbul Ticarət Odası və Türkiyə Naşirlər Birliyinin üzvləri ilə də görüşlər olub, kitab və nəşriyyat işi sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə kitab sənayesi də uğurla inkişaf edir. Bu qayğının nəticəsində Azərbaycan beynəlxalq kitab sənayesinin bir hissəsinə çevrilib. Mədəniyyət Nazirliyi tərəfindən ölkəmizin bu sahədə uğurlarının beynəlxalq aləmdə tanıdılması diqqət mərkəzində saxlanılır. Azərbaycan məşhur kitab sərgilərində xüsusi stendlə təmsil olunur. Cari ildə də ölkəmiz bir neçə nüfuzlu kitab sərgisinə dəvət alıb. Azərbaycan noyabrın 2-dən 10-dək keçiriləcək 41-ci İstanbul Beynəlxalq Kitab Sərgisində “fəxri qonaq ölkə” kimi iştirak edəcək.